# "AZƏRBAYCAN"

İçərisində olduğumuz ayın başa çatmasına müəyyən bir zaman kəsiyi qalıb. Amma "Azərbaycan" jurnalı oxucularını çox da həsrətdə qoymayıb demək olar ki, ayın 3-cü ongünlüyündə özünü bizə yetirib. Şəxsən mənim hər sayını maraqla izlədiyim ədəbi-bədii məcmuənin vaxtında işıq üzü görməsi çox razı salır. Çünki bəzən jurnalda oxuduğum povest, roman və yaxud da ədəbi publisist yazıların növbəti sayda da ardının işıq üzü görməsi onun yolunu səbrisizliklə gözləməyimə səbəb olur. Çalışıram ki, bu zaman kəsiyini öz içimdə bir az da sürətləndirmə və həmin yazının ardını oxuyub öz içimdə müəyyən bir fikri foromalaşdıra bilim.

Bax, bu mənada jurnalın vaxtlı-vaxtında işıq üzü görməsi təbii ki, oxucu üçün, elə onun yaradıcı kollektivi üçün də sevindirici haldı. Yayın bu qorabişirən vaxtında öz oxucusunu sevindirmək fürsətini yüksək qiymətləndirən juranalın kollektivi, yəni baş redaktor İntiqa Qasımzadə, redaktor müavinləri Südabə Ağabalayeva və Əsəd Cahangir, həmçinin məsul katib Tofiq Mahmudov bu sayı da peşəkarlıqla hazırlayıblar. Jurnal "Redaksiyaya məktub"la açılır. Tanınmış filoloq alimimiz Məhərrəm Qasımlının Orxan Paşa adından redaksiyaya ünvanladığı məktub və şeirlər həm oxunaqlı, həm də bir-birindən maraqlıdı. Onun "Şuşanın "Xarı bulbul"ü" şeiri xüsusilə diqqəti çəkir. Şair yazır:

**Ay ürəyim, gözüm gülür,**
**Nədən oldun hüzn gülü?**
**Bizə doğma uzaqlardan**
**Boylanırsan üzüntülü.**
**Sənsiz haçan üzüm gülür?-**
**Şuşanın "Xarı bülbül"ü.**




Jurnalın poeziya bölümündə mənim həmişə yaradıcılığına böyük maraq göstərdiyim Musa Ələkbərlinin silsilə şeirləri təqdim olunub. Musa müəllim yazır:

**Anamın südüylə içmişəm onu,**
**Atamın gözüylə seçmişəm onu.**
**Ömür yolum kimi keçmişəm onu,**
**Mənə bu sevgini çox görmə Allah.**

**Ağla yerməsin mənim tək dəli**
**Arasın göylərdən enən gözəli.**
**Ulu dərgahına yetişsin əli**
**Mənə bu sevgini çox görmə Allah.**

Xatırladım ki, jurnalda həmçinin Vəliyulla Novruzovun, Rəşad Mahmudovun, Vahid Aslanın, Murad Əbilovun, Azad Yaşarın, Güləmail Muradın və Sona Əlinin də şeirləri işıq üzü görübdü. Bu poeziya çələnginin hər birinin öz ətri, öz qoxusu var. o ki, qaldı nəsr bölümünə... Yaradıcı kollektiv bu dəfə də oxuculara bir-birindən maraqlı nümunələr təqdim edib.

Onların arasında Yusif Həsənbəyin, Hədiyyə Şəfaqətin, Nurəddin Ədiloğlunun, həmçinin Mustafa Çəmənlinin əsərləri diqqəti çəkir. Mən imzasını və yaradıcılığını maraqla izlədiyim Mustafa Çəmənli özünün "Üç yaşlı əsir" povestində də üslubuna, yaradıcılığına sadiq qalaraq oxucusunu bu povestin əhatə dairəsində saxlayır. Düşünürəm ki, jurnalın bu sayını oxuyanlar təqdim olunan nümunələrdən zövq alacaqlar. Onu da xatırladım ki, mən juranlın son saylarında işıq üzü görən və müəllifi Qəşəm Nəcəfzadə olan "şəkillər" silsiləsini maraqla izləyirƏm və Qəşəmin bu dəfə Nurgəngiz Günlə bağlı xatirələri məndə də müəyyən anların oyanışına təsir etdi.

**Təbii ki, bu da söz adamlarının doğmalığından irəli gəlir. Jurnalda diqqətimi çəkən Xanəmir Telman oğlunun "Səsin yüksəlsin, əfəndim" yazısı və yeni tərcümələr silsiləsindən olan Fəzlullah Nəiminin "Cavidannamə"si, Elnarə Akimovanın "Aydınlığa doğru" məqaləsi zənnimcə həm oxucunun öyrənmək imkanlarını, tanışlıq fürsətini artıracaqdı. Ümumiyyətlə jurnalın bu sayında hər bir oxucunun zövqünə uyğun materialla tanış olmaq mümkündü.**

Əbülfət MƏDƏTOĞLU